

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 12 (23.174)

18 yanvar 2019-cu il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük yazıçı, dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin anadan olmasının 150 illiyi tamam olur.

Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış və bütöv bir ədəbi məktəb formalaşdırmış qüdrətli şəxsiyyətdir. Vətəndaş yazıçının bədii nailiyyətlərlə zəngin irsində azərbaycançılıq məfkurəsi dövrün ictimai-siyasi fikrinin aparıcı amili kimi dolğun ifadəsini tapmışdır. Sənətkar həyat həqiqətlərini, ictimai mühiti hərtərəfli əks etdirən və bədii-estetik dəyər daşıyıcısına çevrilən rəngarəng obrazlar qalereyası yaratmışdır. Ana dilinin saflığı uğrunda daim mübarizə aparmış Cəlil Məmmədquluzadənin meydana gətirdiyi qiymətli dram və nəsr əsərləri, parlaq publisistika dərin humanist məzmuna malik olub, özündə milli və ümumbəşəri dəyərlərin vəhdətini ehtiva edir. Azərbaycanda və onun hüdudlarından kənarda geniş yayılaraq milli oyanışa, yeniləşmə hərəkatına yol açan və azadlıq ideyalarının inkişafına qüvvətli təsir göstərən "Molla Nəsrəddin" jurnalı məhz Mirzə Cəlil dühasının məhsuludur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının çoxəsrlik mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr vermiş söz ustası Cəlil Məmmədquluzadənin 150 illiyinin layiqincə qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, böyük demokrat ədib Cəlil Məmmədquluzadənin 150 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 17 yanvar 2019-cu il*

## "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" uğurla icra olunur

*Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsil alması və cəmiyyətə inteqrasiyası məqsədilə mühüm tədbirlər həyata keçirilir. Yaradılan müasir infrastruktur, eləcə də bu sahənin inkişafı ilə bağlı qəbul olunmuş dövlət proqramı, mərhələ-mərhələ görülən işlər müvafiq kateqoriyadan olan uşaqların təhsil imkanlarını və reabilitasiyasını xeyli yaxşılaşdırmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası 2018-ci ildə də sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbinə, onların inklüziv və məsafədən təhsil imkanlarının genişlənməsinə, cəmiyyətə inteqrasiyasına əlverişli şərait yaratmışdır.*





Sağlamlıq imkanları məhdud uşaqların təhsilində diqqət, ilk növbədə, onların məktəbəqədər təhsilinin təşkilinə yönəldilməlidir. Bu səbəbdən də muxtar respublikada məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaqlarla iş səmərəli qurulmuşdur. Yaradılmış məlumat bazasının daim yenilənməsi müvafiq kateqoriyadan olan uşaqlar üçün geniş imkanlar açmışdır. Hazırda muxtar respublikada 310 məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaq qeydiyyatdadır. Həmin uşaqların məktəbəqədər tərbiyəsinin təşkili sahəsində görülən işlərin nəticəsidir ki, 2018-2019-cu tədris ilində 42 uşaq məktəbəqədər təhsil müəssisələrində, 10 uşaq Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində, 9 uşaq ümumtəhsil məktəblərində fəaliyyət göstərən məktəbəqədər hazırlıq qruplarında, nitq qüsuru olan 149 uşaq isə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin defektoloji bölmələrində tədrisə cəlb edilmişdir. Defektoloji bölmənin və psixoloji dəstək xidmətinin mütəxəssisləri Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində uşaqlarla fərdi qaydada reabilitasiyayönümlü məşğələlər aparmış, mərkəzin təlim-tərbiyə üzrə mütəxəssislərinə maarifləndirici təlimlər keçmişlər. Bununla yanaşı, məktəbəqədər təhsil müəssisələrində uşaqların fiziki və əqli inkişafını, habelə yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək üçün tədrisdə müasir təlim üsulları tətbiq olunmuş, təlim-tərbiyə üzrə məsul işçilərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə kurslar təşkil edilmişdir.

Muxtar respublikada məhdud fiziki imkanlı uşaqların ümumtəhsil, peşə və məktəbdənkənar təhsil müəssisələrinə cəlbi də diqqətdə saxlanılır, dövlət proqramında müəyyənləşdirilən vəzifələr ardıcıl şəkildə yerinə yetirilir. 2018-2019-cu tədris ilinin əvvəlində məktəb yaşı çatan sağlamlıq imkanları məhdud uşaqların sayı 108 olmuşdur ki, onların da 68-i mövcud potensialları nəzərə alınaraq ümumtəhsil məktəblərinin birinci siniflərinə, 1 uşaq distant tədrisin 1-ci sinfinə, 1 uşaq isə Görmə Qabiliyyəti Məhdud Uşaqlar üçün Xüsusi İbtidai Məktəbə cəlb edilmişdir. Hazırda ümumtəhsil məktəblərində 963, Görmə Qabiliyyəti Məhdud Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə 8, Distant Tədris Mərkəzində isə 22 sağlamlıq imkanları məhdud uşaq təhsil alır. Muxtar respublikanın ümumtəhsil müəssisələrində fiziki imkanları məhdud uşaqların inklüziv tədrisə cəlbi, məktəb mühitinə tədricən uyğunlaşması məqsədilə onların tədrisdə qismən iştirakına şərait yaradılmış, fənn kurikulumları üzrə tədris həyata keçirilmişdir. Eyni zamanda informasiya texnologiyalarının tətbiqi vasitəsilə bu kateqoriyadan olan uşaqların informatikaya dair bilikləri artırılmış, müasir texnoloji avadanlıqlardan istifadə bacarıqları formalaşdırılmışdır.

Aztəminatlı ailələrdən olan sağlamlıq imkanları məhdud uşaqların təhsili ilə yanaşı, onların geyim və məktəbli ləvazimatları ilə təmin olunması da qarşıda duran əsas vəzifələrdəndir. Cari tədris ilində bu istiqamətdə tədbirlər davam etdirilmiş, sağlamlıq imkanları məhdud aztəminatlı 278 uşaq məktəbli geyimi, məktəbli ləvazimatı, habelə qış geyimləri ilə təmin olunmuşdur.

Sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması məqsədilə aidiyyəti dövlət orqanları tərəfindən məktəbəqədər, məktəb və məktəbdənkənar təhsil müəssisələrində 74 monitorinq aparılmış, maarifləndirici görüşlər keçirilmiş, onların muxtar respublikanın muzeyləri, Şahmat Mərkəzi, həmçinin AMEA Naxçıvan Bölməsi ilə təşkil edilmiş interaktiv dərslərdə iştirakı təmin edilmişdir. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində psixoloji dəstək xidmətinin yaradılması qeyd olunan məsələ ilə bağlı fəaliyyətin təşkilində vacib amildir. Çünki ötən il mərkəzin psixoloji dəstək xidmətinə 47 uşaq cəlb edilərək onlarla bağlı konsultasiya işi aparılmış, fərdi proqram hazırlanmış və müvafiq reabilitasiya xidmətlərinə cəlb edilmişlər. Mərkəzin Defektoloji bölməsinin və psixoloji dəstək xidmətinin mütəxəssisləri iş təcrübəsini artırmaq məqsədilə Bakı şəhərinə ixtisasartırma kurslarına göndərilmişdir. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin və Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkilatçılığı ilə ümumtəhsil müəssisələrində işləyən 70 psixoloqun iştirakı ilə konfrans keçirilmiş, psixoloqlar üçün təşkil edilən 1 həftəlik seminarda isə 25 nəfər iştirak etmişdir.

Dövlət proqramında yuxarı siniflərdə təhsil alan sağlamlıq imkanları məhdud uşaqların peşə təhsilinə cəlbi istiqamətində də müvafiq işlərin görülməsi nəzərdə tutulmuşdur. Ona görə də sağlamlıq imkanları məhdud uşaqların peşə təhsilinə, musiqi məktəblərinə, məktəbdənkənar müəssisələrin dərnəklərinə cəlb edilməsi, onların istirahətlərinin və asudə vaxtlarının səmərəli təşkili, yaradıcılıq potensiallarının artırılması diqqətdə saxlanılmış, ümumtəhsil məktəblərinin yuxarı siniflərində təhsil alan şagirdlərə peşəyönümlü məşğələlər keçirilmiş, əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatlar verilmişdir. 2018-2019-cu tədris ilinin əvvəlində Naxçıvan Musiqi Kollecinə 3, Naxçıvan Dövlət Texniki Kollecinə 5, Naxçıvan Tibb Kollecinə 4, ali təhsil müəssisələrinə isə 14 sağlamlıq imkanları məhdud uşaq qəbul olmuşdur.

Məktəbdənkənar tədris müəssisələrinə müvafiq kateqoriyadan olan uşaqların cəlbi onların cəmiyyətə inteqrasiyasında və istedadlarının üzə çıxarılmasında mühüm əhəmiyyət daşıyır. Tədris ili ərzində 56 uşaq şahmat məktəblərində, 111 uşaq məktəbdənkənar müəssisələrin dərnəklərində, 90 uşaq idman məktəblərində məşğələlərə cəlb edilmişdir. Hazırda uşaq musiqi məktəblərində 99 müvafiq kateqoriyalı uşaq təhsil alır.

Naxçıvan şəhərindəki Uşaq Bərpa Mərkəzinin fəaliyyətinin ilbəil təkmilləşdirilməsi onu göstərir ki, dövlətimiz tərəfindən sağlamlıq imkanları məhdud uşaqların tibbi reabilitasiyası da diqqətdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən 2018-ci ildə mərkəzin fəaliyyəti daha da təkmilləşdirilmiş, yeni tibbi avadanlıqlar alınmış və sağlamlıq imkanları məhdud uşaqlar üçün uyğunlaşdırılmış əyləncəli oyun sahəsi istifadəyə verilmişdir. İl ərzində Uşaq Bərpa Mərkəzində 365 uşaq müalicə almış, 77 uşağa protez-ortopediya xidmətləri göstərilmiş, 125 uşağa texniki reabilitasiya vasitələri verilmiş, 18 uşağın ölkə daxilində müalicəsi təşkil edilmiş, 4 uşaq isə sanatoriya və müalicə pansionatlarına göndərilmişdir.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində yaradılan şərait məhdud fiziki imkanlı uşaqların təhsili və reabilitasiyasının səmərəli qurulmasına imkan verir. Ötən dövrdə mərkəzdə yeni avadanlıqların qurulması, kursların açılması, audio və elektron kitabxanaların yaradılması fəaliyyətin hərtərəfli təşkilinə hesablanıb. 2018-ci ildə mərkəzdə fəaliyyət göstərən bütün bölmələrə bu kateqoriyadan olan 237, o cümlədən Defektoloji bölmənin Şərur rayon filialına 39, Ordubad rayon filialına isə 32 sağlamlıq imkanları məhdud uşaq cəlb edilmiş, eşitmə qabiliyyəti məhdud 8 uşağın tədrisi davam etdirilmiş, diqqət zəifliyi və hiperaktivliyi olan uşaqlar üçün məşğələlərə 13 uşaq cəlb edilmişdir. Mərkəzdə 26 uşağın təhsil aldığı art terapiya, 17 uşağın cəlb edildiyi musiqi terapiyası kursları açılmış, kinekt oyunları və əmək terapiyası otaqlarının fəaliyyəti davam etdirilmişdir. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi tərəfindən uşaqlar üçün ustad dərsləri keçilmişdir. Ümumilikdə, təlimlərə cəlb edilən uşaqlardan 45-nin tam reabilitasiyası başa çatdırılmışdır. Mərkəzin audiokitabxana fonduna 63 yeni audiokitab əlavə edilmişdir. Hazırda audiokitabxana fondunda 1386, elektron kitabxana fondunda 773, brayl kitabxana fondunda isə 981 kitab mövcuddur. Görmə məhdudiyyətli şəxslər üçün "Könül işığı" adlı aylıq brayl jurnalı, habelə uşaqlar üçün "Şəfəq" adlı xüsusi nəşrlər də audiokitabxananın kataloquna daxil edilmişdir. Naxçıvan Müəllimlər İnstitutunun Psixologiya laboratoriyasında isə sağlamlıq imkanları məhdud şəxslər üçün müvafiq xidmətlər yaradılmışdır.

Sağlamlıq imkanları məhdud uşaqların tətil günlərini səmərəli keçirmələri üçün təşkil olunan gəzinti və ekskursiyalar da onların cəmiyyətə inteqrasiyasını sürətləndirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq "Yay məktəbi" çərçivəsində sağlamlıq imkanları məhdud 46 uşağın Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil olunmuş, sağlamlıq imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupu uşaqlar qarşısında konsert proqramı ilə çıxış etmişdir.

Sağlamlıq imkanları məhdud uşaqlar arasında müxtəlif yarış və müsabiqələrin keçirilməsi onların asudə vaxtlarının səmərəli təşkili ilə yanaşı, istedadlarının üzə çıxarılması, əqli və fiziki inkişafı baxımından da mühüm əhəmiyyətə malikdir. Ötən il sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərinin sərgi-satışında, Novruz bayramı münasibətilə keçirilən tədbirdə, habelə "Milli geyimlər" festivalında sağlamlıq imkanları məhdud uşaqların da rəsm və əl işləri nümayiş olunmuşdur. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən təşkil edilən muxtar respublika müsabiqəsində uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində, habelə Naxçıvan Musiqi Kollecində təhsil alan sağlamlıq imkanları məhdud uşaqlar da iştirak etmiş, 6 nəfər müxtəlif nominasiyalar üzrə fərqlənmişdir. Naxçıvan şəhər 1 nömrəli Uşaq Musiqi Məktəbində təhsil alan sağlamlıq imkanları məhdud uşaqların konsert proqramı təşkil edilmiş, keçirilən rəsm müsabiqələrində sağlamlıq imkanları məhdud uşaqların iştirakına nail olunmuşdur. Həmçinin Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud uşaqların intellektual səviyyələrinin artırılması məqsədilə "Sən gül ki, dünya gülsün!" adlı bilik müsabiqəsi də keçirilmiş, əlamətdar günlərlə bağlı təşkil edilən tədbirlərdə sağlamlıq imkanları məhdud uşaqlara hədiyyələr verilmişdir. Ötən dövrdə sağlamlıq imkanları məhdud uşaqlar arasında əyləncəli idman oyunları, həmçinin idmanın stolüstü tennis, üzgüçülük, boccia, şahmat, dama növləri üzrə yarışlar keçirilmiş, qaliblərə hədiyyələr təqdim edilmişdir. Muxtar respublikanın rayonlarında boccia, Sədərək rayonunda isə stolüstü tennis bölməsi yaradılmış, məşqçi-müəllimlər müəyyənləşdirilmişdir. Qruplar oyun üçün zəruri olan toplar və digər avadanlıqlarla təchiz edilmişdir.

Dövlət proqramında qarşıya qoyulan vəzifələrin icrası bundan sonra da daim diqqətdə saxlanılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi – 95

# Muxtar respublikanın daxili işlər orqanları hərtərəfli qayğı ilə əhatə olunub

*95 illik yubileyini qeyd edən Naxçıvan polisi yarandığı gündən şərəfli yol keçərək bu gün də öz xalqına və dövlətinə xidmət etməkdədir. Naxçıvan polisi cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin qorunmasında, eləcə də erməni quldurlarının ölkəmizə hərbi təcavüzü zamanı polis andına sədaqət nümayiş etdirmiş, öz canını və qanını əsirgəməmiş, bu yolda şəhidlər vermişdir. Məhz bu gün Naxçıvan polisi öz peşə tarixinin 95 illik yubileyini böyük nailiyyət və uğurlarla qarşılayır. Ən əsası isə bu yubiley muxtar respublika rəhbərinin ali diqqət və qayğısı, muxtar respublika əhalisinin polisə bəslədiyi yüksək etimadla qeyd olunur.*



1920-ci ilin aprelində Azərbaycanda Xalq Cümhuriyyətinin süquta uğraması və Sovet hökumətinin qurulması ilə əlaqədar SSRİ Xalq Daxili İşlər Komissarlığının tabeçiliyində Azərbaycan Xalq Daxili İşlər Komissarlığının yaradılması və 18 yanvar 1924-cü ildə Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin birinci plenumunun qərarı ilə Naxçıvan Daxili İşlər Şöbəsinin Naxçıvan Daxili İşlər Komissarlığına çevrilməsi polis orqanlarının formalaşması ilə nəticələnmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra SSRİ dövründə fəaliyyət göstərən Naxçıvan polisi sosialist quruluşuna uyğun dövlət qurumu olsa da, həmin dövrdə Naxçıvanın daxili işlər orqanları böyük təcrübə qazanmış, yüksək bilik və peşəkarlıq əldə etmiş, təşkilati cəhətdən möhkəmlənmişdir. Azərbaycan polisinin, o cümlədən Naxçıvan polisinin əsl inkişafı, milliləşməsi isə ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsindən sonra daxili işlər orqanlarına dövlət qayğısı güclənmiş, əməkdaşların vətənpərvərlik, milli-mənəvi dəyərlər əsasında tərbiyəsinə, peşəkarlığının yüksəldilməsinə, milli kadrların yetişməsinə xüsusi önəm verilmişdir. Sovetlər Birliyinin süqutundan sonra da polis orqanlarına ən böyük kömək və qayğı 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləmiş ulu öndər Heydər Əliyev tərəfindən göstərilmişdir. Belə ki, onun təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasında Müdafiə Komitəsi yaradılmış və polis Müdafiə Komitəsi ilə birgə torpaqlarımızın qorunmasında fəal iştirak etmişdir.

Həyata keçirilən davamlı islahatlar, cinayətkarlığa qarşı mübarizə üzrə normativ-hüquqi aktların, o cümlədən "Polis haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi polisin fəaliyyətini nizama salmış, insan hüquq və azadlıqlarının təmin edilməsi və polisin fəaliyyətinin tənzimlənməsi baxımından son dərəcə böyük əhəmiyyətə malik olmuşdur. Ulu öndər Heydər Əliyevin "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında" 9 avqust 1994-cü il tarixli Fərmanı ilə cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirilmiş, hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirilmişdir.

Naxçıvan polisinin milli dövlətçilik ideologiyasına söykənən prinsiplər əsasında formalaşmasının nəticəsidir ki, erməni hərbi birləşmələrinə qarşı ilk olaraq mübarizə aparan və uzun müddət rəşadətlə vuruşan yeganə qüvvə polis olmuşdur. Torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə igidlik, şücaət və əsl qəhrəmanlıq göstərən 16 polis əməkdaşı şəhid olmuş, 76 polis işçisi yaralanmışdır. Dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkədə yaranmış mürəkkəb vəziyyət muxtar respublikadan da yan keçməmişdir. Müstəqilliyin əldə edildiyi ilk illərdə hakimiyyət uğrunda gedən daxili çəkişmələr, torpaqlarımıza Ermənistanın hərbi təcavüzü, dövlət strukturlarına təyin edilmiş təsadüfi və səriştəsiz rəhbərlərin yaratmaz işi muxtar respublikamızda da ictimai sabitliyin tez-tez pozulmasına, kriminogen durumun əməliyyat nəzarətindən çıxmasına səbəb olmuşdur. Ancaq ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan bir çox təhlükələrdən qorunmuş və bu günün inkişaf xəttinə gəlib çatmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun ulu öndərin yolunu muxtar respublikada uğurla davam etdirməsinin nəticəsidir ki, muxtar respublikamızda sabitlik təmin olunmuşdur. Artıq neçə illərdir ki, muxtar respublikada cinayətkarlığın dinamikası yalnız ikirəqəmli ədədlə ifadə olunur. Həmçinin muxtar respublikada son iki ilə yaxın müddətdə əməliyyat şəraitinin yenidən qurulması və mövcud olan çatışmazlıqların aradan qaldırılması istiqamətində verilən tapşırıqların, eləcə də şəxsi heyətin gərgin əməyinin nəticəsində qeydə alınmış cinayət hadisələrinin açılması, cinayətlərin törədilməsində təqsirli bilinərək axtarışı elan olunmuş şəxslərin tutulması 100 faiz təmin edilmişdir. 25-30 il bundan əvvəllə müqayisədə muxtar respublikada cinayətlərin sayı 95 faiz azalmışdır. Müasir dövrdə ən geniş yayılmış mühafizə sistemlərindən olan videomüşahidə kameralarından geniş istifadə edilməsi işin effektivliyini daha da artırmışdır. Bu kameraların həm profilaktik nöqteyi-nəzərdən, həm də cinayətlərin açılması baxımından böyük faydası vardır.

Ali Məclis Sədrinin qayğısı ilə daxili işlər orqanlarının keçdiyi böyük inkişaf yolunun daha bir əyani təsdiqi bu istiqamətdə çoxsaylı infrastruktur layihələrinin icra olunmasıdır. 2000-2018-ci illər ərzində Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarının maddi-texniki bazasının müasir səviyyəyə çatdırılması üzrə əməli-təşkilati tədbirlər işlənib həyata keçirilmiş, xidməti avtomobillər yeni model xarici markalı avtomobillərlə əvəzlənmişdir. Şəxsi heyətin sosial müdafiəsinin daha da yaxşılaşdırılması istiqamətində tədbirlər ardıcıl olaraq həyata keçirilmiş və bu gün də davam etdirilməkdədir. Bu baxımdan Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasında xidmət edən zabit-gizirlərin ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər görülmüş, hər biri 5 mərtəbəli 60 və 45 mənzildən ibarət 2 yaşayış binası tikilib istifadəyə verilmiş, mövcud 2 mərtəbəli 8 mənzildən ibarət yaşayış binasına 1 mərtəbə də əlavə olunmaqla əsaslı təmir olunaraq istifadəyə verilmiş, hərbi qulluqçuların istifadəsində olan yaşayış binaları əsaslı təmir edilmişdir.

Həmçinin xidməti fəaliyyətin aparılması üçün əməkdaşların iş şəraiti də müasir tələblərə uyğunlaşdırılmış, ərazi polis orqanları üçün yeni inzibati binalar tikilmiş, təmirə ehtiyacı olan binalar əsaslı təmir edilmişdir. Son illər polis sahə inspektorları üçün müasir tələblərə cavab verən 143 polis sahə məntəqəsi, Daxili İşlər Nazirliyi üçün yeni korpus tikilmiş, köhnə korpus isə əsaslı təmir edilmişdir.

Daxili işlər orqanlarının ixtisaslı kadrlarla komplektləşdirilməsi muxtar respublika rəhbərinin bu sahəyə qayğısının daha bir ifadəsidir. Belə ki, uğurlu kadr siyasətinin tərkib hissəsi olaraq Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin kadr potensialının təkmilləşdirilməsi və müasir dövrün tələblərinə cavab verən gənc əməkdaşların hazırlanması nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 5 mart tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbi yaradılmışdır. Hazırda Orta İxtisas Polis Məktəbi üçün yeni kompleks inşa olunur. Vətəndaşlarımızın etimadını qazanmaq üçün yeni iş üsulu və metodlar tətbiq edilir, hüquqazidd əməllərin qarşısının alınmasında və ictimai təhlükəsizliyin təmin edilməsində vətəndaş cəmiyyəti ilə əlaqələr möhkəmləndirilir. Şəxsi heyətin peşə hazırlığının, mənəvi dəyərlərə ciddi riayət ruhunda tərbiyə olunması işinin daha da yaxşılaşdırılması, əhalinin müxtəlif təbəqələri və kütləvi informasiya vasitələri ilə əlaqələrin genişləndirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir. Bu kimi tədbirlər cinayətkarlığın dinamikasına müsbət təsir göstərərək muxtar respublikanı dünyanın ən təhlükəsiz regionlarından birinə çevirmişdir.

Xidməti avtomobillərin texniki baxışdan keçirilməsi işini asanlaşdırmaq məqsədilə Şərur, Culfa və Ordubad rayonları ərazisində Dövlət Yol Polisi İdarəsinin yeni texniki müayinə mərkəzləri tikilərək istifadəyə verilmişdir. Bu müayinə mərkəzlərində il ərzində, təxminən, 50 min avtomobilin texniki baxışdan keçirilməsi mümkündür. Yeni informasiya texnologiyalarının tətbiqi sahəsində də bir sıra əsaslı tədbirlər həyata keçirilmişdir. Naxçıvan şəhərinin inzibati ərazisini əhatə edən "Təhlükəsiz şəhər" sistemi çərçivəsində şəhərin bir çox koordinatlarında təhlükəsizlik kameraları, Dövlət Yol Polisi İdarəsində və Pasport Qeydiyyat və Miqrasiya şöbəsində cərimə və rüsumların yerində ödənilməsi üçün POS-terminallar, yol-patrul xidməti avtomaşınlarında məlumat bazasına qoşulmaq imkanı verən bortkompüterlər və sürət həddinə nəzarət edilməsini təmin edə bilən radarlar, o cümlədən muxtar respublikanın magistral yollarında da sürət həddinə nəzarət edilməsi məqsədilə stasionar radar vasitələri quraşdırılmışdır.

Naxçıvan haqqında danışılanda fəxr edə biləcəyimiz çox uğurlar vardır. Bu uğurların qazanılmasında, əldə olunmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən verilən istiqamət və tapşırıqların böyük rolu olmuşdur. Muxtar respublikada cinayətkarlığa qarşı mübarizə sahəsində insan amilinə üstünlük verilməsi, profilaktik və hüquqi maarifləndirmə tədbirlərinin daha effektli və əsaslı həyata keçirilməsi polis orqanlarının qarşısında duran əsas vəzifələrdir.

*Naxçıvan Muxtar Respublikası Daxili İşlər orqanlarının əməkdaşları onlara göstərilən etimadı bundan sonra da doğrultmaq üçün bütün qüvvə və vasitələri səfərbər etməklə dövlətçiliyimizin keşiyində mətanətlə dayanacaq, cinayətkarlığa qarşı mübarizədə qətiyyətli addımlar atacaq, muxtar respublikada asayişi və ictimai təhlükəsizliyi təmin edəcək, xidməti andına sadiq qalaraq polis adını şərəflə qoruyacaqdır.*

**Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi**

## Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi – 95

# Muxtar respublikada ədliyyə sistemi müasir tələblər əsasında qurulub



*Naxçıvan Muxtar Respublikasında ilk ədliyyə orqanı 1924-cü il yanvarın 18-də yaradılmışdır. Xalq Ədliyyə Komissarlığı adı ilə fəaliyyət göstərən həmin qurum 1946-cı ildən Ədliyyə Nazirliyi adlandırılmışdır. Ölkə ədliyyəsi sovet dövründə dəfələrlə ləğv edilib yenidən yarandığı kimi, muxtar respublikamızda da nazirlik 1956-cı ildə ləğv edilmiş, səlahiyyətləri digər orqanlara verilmişdir.*

Sovet hakimiyyəti dövründə ideologiya maraqları çərçivəsində dövlət strukturlarının yaradılması, hüquq siyasətinin dəfələrlə dəyişdirilməsi, ədliyyə və məhkəmə orqanlarının bir neçə dəfə ləğv edilməsi və yenidən yaradılması sabit ədalət mühakiməsi sisteminin formalaşmasına mane olurdu. Ədliyyə Nazirliyinin yenidən yaradılması görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilmişdir. Belə ki, 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Azərbaycan SSR Ədliyyə Nazirliyi, Azərbaycan Kommunist Partiyasının Naxçıvan Vilayət Komitəsinin 5 may 1971-ci il tarixli 6 nömrəli büro iclas protokolu ilə Naxçıvan MSSR Ədliyyə Nazirliyi yenidən təsis olunmuşdur.

Müstəqillik əldə etdikdən sonra respublikamızda dövlət idarəçilik mexanizmlərinin səmərəli fəaliyyətini tənzimləyən qanunların qəbulu və təkmilləşdirilməsi davamlı prosesə çevrilmişdir. Bu istiqamətdə həyata keçirilən islahatlar, tətbiq olunan yeniliklər zamanın tələbləri ilə səsləşən, cəmiyyətin inkişafını, vətəndaş hüquq və azadlıqlarının təmini məsələlərini başlıca amil kimi götürmüşdür. Həyata keçirilən islahatlar çərçivəsində ədliyyə işinin müasir tələblər səviyyəsində qurulması üçün əsaslı tədbirlər görülmüş, Ədliyyə Nazirliyinin üzərinə mühüm vəzifələr qoyulmuşdur.

Ölkəmizdə insan hüquqlarının əsl müdafiəsinə xidmət edən müstəqil məhkəmə hakimiyyətinin formalaşmasına xüsusi diqqət yetirilmiş, yeni üçpilləli məhkəmə sistemi fəaliyyətə başlamışdır. Görülmüş tədbirlər nəticəsində ölkə ədliyyəsi beynəlxalq norma və prinsiplərə uyğun olan yeni inkişaf yoluna qədəm qoymuş, onun çoxşaxəli fəaliyyətinin tənzimlənməsi üçün onlarla normativ-hüquqi sənəd qəbul edilmişdir. Ulu öndər Heydər Əliyevin "Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına dəyişikliklər və əlavələr edilməsi barədə" 2002-ci il 24 avqust tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinə notariat, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, məhkəmə icraçıları və məhkəmə nəzarətçiləri, cəzaların icrası, normativ aktların dövlət qeydiyyatı, müvafiq məhkəmələrin maliyyə, maddi-texniki təminatlarının həyata keçirilməsi və digər sahələr üzrə əlavə səlahiyyətlər verildi. Əlavə və dəyişikliklərə qədər nazirlik azsaylı ştat vahidi ilə fəaliyyət göstərirdisə, həmin fərmanın qəbulundan sonra nazirliyin mərkəzi aparatının yeni strukturu təsdiq edildi, yeni şöbə və bölmələr yaradıldı.

Ümummilli liderin hüquq siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin insan haqlarının etibarlı qorunması, hüquq xidmətinin yaxşılaşdırılması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması barədə tapşırıqlarının icrası üzrə görülmüş tədbirlər nəticəsində ədliyyə sistemi öz inkişafının yeni, müasir mərhələsinə qədəm qoymuşdur. Belə ki, ədliyyə fəaliyyətinin normativ-hüquqi əsasları təkmilləşdirilmiş, ona hüquq-mühafizə orqanı statusu verilmişdir.

Muxtar respublika rəhbərinin ədliyyə sahəsinə diqqət və qayğısı nəticəsində ədliyyə orqanlarının müasirləşdirilməsi və inkişafı ilə bağlı son illərdə müvafiq qərarlar qəbul olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2006-cı il 25 aprel tarixdə "Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi haqqında Əsasnamə" təsdiq edilmişdir.

2007-ci ildə nazirliyin tarixində ilk dəfə olaraq Penitensiar Xidmət yaradılmışdır. Xidmətin yaradılması muxtar respublikada cəza-icra siyasətinin həyata keçirilməsinə öz müsbət təsirini göstərmiş, müasir infrastrukturun yaradılması üzrə ardıcıl tədbirlər həyata keçirilmişdir. Məhkumların saxlanma şəraitinin beynəlxalq standartlara uyğunlaşdırılması və onların yaşayış yerlərinə yaxın ərazilərdə saxlanılması istiqamətində tədbirlər görülmüşdür. Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsi, İstintaq

Ardı 3-cü səhifədə

Təcridxanası, 8 saylı Məntəqə Tipli Cəzaçəkmə Müəssisəsi tikilib istifadəyə verilmişdir. Qeyd olunmalıdır ki, Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsi ölkəmizdə ilk dəfə olaraq muxtar respublikamızda istifadəyə verilmişdir. Müasir tələblərə cavab verən bu müəssisənin yaradılması insan hüquqlarının müdafiəsi sahəsində mühüm tədbir kimi xüsusi əhəmiyyətə malikdir.

Muxtar respublikada məhkumluq həyatı yaşayan insanların müxtəlif peşələr üzrə kurslara cəlbi və azadlığa buraxıldıqdan sonra öz peşələrinə uyğun işlə təmin olunması da diqqət mərkəzində saxlanılmışdır. 2016-cı ildə Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində yaradıcılıq və istehsalat binası istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: ***“Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində yaradıcılıq və istehsalat binasının istifadəyə verilməsi ölkəmizdə insan amilinə verilən qiymətin daha bir ifadəsidir. Müstəqil Azərbaycanın hər bir vətəndaşı ölkəmiz üçün çox qiymətlidir. Çünki ölkənin inkişafını onun vətəndaşları təmin edirlər. İxtisası və peşəsi olan vətəndaşlar isə ölkəsi və xalqı üçün daha faydalı olur”.***

Bu gün ədliyyə sahəsində dövlət siyasətini və idarəetməni həyata keçirən nazirlik əhalinin hüquqi maarifləndirilməsində iştirak edir, qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatını və dövlət reyestrini, penitensiar sistemə, notariat orqanlarının və qeydiyyat orqanlarının fəaliyyətinə rəhbərlik edir, məhkəmələrin və digər orqanların qərarlarının icrasını, məhkəmələrin fəaliyyətinin təşkilati təminatını, məhkəmə statistikasının aparılmasını, bələdiyyələrə metodoloji yardım və inzibati nəzarəti, məhkəmə ekspertizalarının keçirilməsini və digər vəzifələrini təmin edir.

Hüquqi dövlətin inkişafı möhkəm ədliyyə sisteminin formalaşdırılması ilə sıx bağlıdır. Son illər ədliyyə sisteminin müasirləşdirilməsi və müstəqil məhkəmə hakimiyyətinin daha da gücləndirilməsi üzrə çox mühüm addımlar atılmışdır. Bütün bu inkişafın fonunda ədliyyə orqanları işçilərinin sosial təminatının yaxşılaşdırılması, onların dövlət təltiflərinə, fəxri adlara və yüksək ali rütbələrə layiq görülməsi ədliyyə sisteminə göstərilən dövlət qayğısının bariz ifadəsidir. Qürurla deyə bilərik ki, muxtar respublikada gedən sürətli sosial-iqtisadi inkişaf əhalinin rahat və təhlükəsiz yaşamasına, onların hüquq və azadlıqlarının yüksək səviyyədə qorunmasına xidmət edir. Ədliyyə işçiləri bundan sonra da uğurla həyata keçirilən dövlətçilik amallarına sadiq qalaraq xidməti vəzifələrini layiqincə yerinə yetirəcəklər.

***Naxçıvan Muxtar Respublikası***
***Ədliyyə Nazirliyinin***
***mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi – 95***

# İnsan sağlamlığı cəmiyyətin ən qiymətli sərvətidir

*1924-cü il yanvarın 18-də Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Xalq Səhiyyə Komissarlığı yaradılıb və səhiyyə sisteminin dövlət tərəfindən tənzimlənməsinin əsası qoyulub.*

Ölkəmizdə səhiyyənin cəmiyyət və dövlət həyatında ən mühüm sahəyə çevrilməsi, onun inkişaf və tərəqqisi xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr edən ümummilli liderimiz səhiyyəni cəmiyyət və dövlət həyatında ən mühüm sahə kimi qiymətləndirərək demişdir: ***“Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir”.***

Ulu öndərin Azərbaycana rəhbərliyinin hər iki dövründə muxtar respublikada 1156 yerlik xəstəxana, poliklinika və ambulatoriyalar tikilmişdir ki, bu da genişmiqyaslı quruculuq və inkişaf konsepsiyasının əyani ifadəsidir. Bu gün dövlət başçısı cənab İlham Əliyevin ulu öndərin müəyyənləşdirdiyi yolu uğurla davam etdirməsi səhiyyə sisteminin də inkişafına səbəb olub. Qəbul olunmuş dövlət proqramlarının icrası xəstələrə göstərilən tibbi xidmətin səviyyəsinin xeyli yüksəlməsinə, xəstəliklər üzrə müayinələrin həcminin artmasına, xəstələrin dərmanla təchizatının əhəmiyyətli dərəcədə yaxşılaşmasına imkan verib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ***“Dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır”*** prinsipi əsas götürülərək muxtar respublikada əhalinin sağlamlığının qorunması istiqamətində tibbi profilaktikanın genişləndirilməsi, müasir tibbi avadanlıqlarla təchiz olunmuş səhiyyə ocaqlarının inşası daim diqqət mərkəzində saxlanılır. Son illər tikilərək və ya yenidən qurularaq istifadəyə verilən Naxçıvan Muxtar Respublika Xəstəxanası, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası, Diaqnostika-Müalicə Mərkəzi, Doğum Mərkəzi, Naxçıvan Tibb Kolleci, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası, Naxçıvan Uşaq Bərpa Mərkəzi, Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzi, Naxçıvan Şəhər Təcili Tibb Mərkəzi, Duzdağ Fizioterapiya, Kardioloji, Onkoloji, Yoluxucu Xəstəliklər, Gigiyena və Epidemiologiya mərkəzləri, Psixi və Ağciyər Xəstəlikləri dispanserləri, rayon mərkəzi və sahə xəstəxanaları, kəndlərdə həkim ambulatoriyaları, feldşer-mama məntəqələri səhiyyə sistemində aparılan quruculuq işlərinin daha bir ifadəsidir.

Ölkə vətəndaşlarının kütləvi tibbi müayinədən keçirilməsi barədə ölkə Prezidentinin müvafiq tapşırığı, səhiyyə sistemində qəbul edilmiş dövlət proqramları hər il muxtar respublikamızda da uğurla icra olunur, tibbi müayinə zamanı aşkar olunan ilkin, eləcə də qeydiyyatda olan xroniki xəstələr əlavə müayinələrə cəlb edilir. Ahıl, eləcə də torpaqlarımızın və dövlətçiliyimizin qorunması zamanı əlil olmuş vətəndaşların, müxtəlif yaş qrupuna daxil olan əhalinin kütləvi müayinələri diqqət mərkəzində saxlanılır.



Uşaqların icbari dispanserizasiyadan keçirilməsini təmin etmək üçün muxtar respublika səhiyyəsində ardıcıl tədbirlər həyata keçirilir, uşaq əhalisinə tibbi xidmətin səmərəliliyi ildən-ilə yüksəldilir. Həmin tədbirlərin davamı olaraq ötən il oktyabrın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Dövlət proqramının məqsədi uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətini yüksəltməklə onların arasında xəstələnmənin, sağlamlıq imkanlarının məhdudluğunun və ölüm səviyyəsinin azaldılmasından ibarətdir.

Muxtar respublikanın səhiyyə müəssisələrində xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələrin aşkar və aktiv müalicəyə cəlb edilməsi, eləcə də xəstələrin dövlət vəsaiti hesabına ixtisaslaşdırılmış müalicə ilə təminatı mümkün olub. Şəhər və rayon xəstəxanalarında 34 hemodializ aparatı qurulub.Yaradılmış təminat hesabına hazırda Naxçıvan şəhəri ilə yanaşı, rayon mərkəzi xəstəxanalarında 123 xəstə üçün həftədə 3 dəfə olmaqla, 4 saatlıq proqramlı hemodializ seansı keçirilir. Həyata keçirilən tədbirlər nəticəsində şəkərli diabet xəstələrinin dərman və özünənəzarət vasitələri ilə təmin olunması xeyli yaxşılaşıb. 2007-ci ildə verilmiş qlükometr aparatları və test lövhələrindən ibarət özünənəzarət vasitələri yeniləri ilə əvəz olunub.

Son illər strateji əhəmiyyətli məsələ kimi qan xidmətinin inkişafına xüsusi diqqət yetirilir. Hazırda Naxçıvan Muxtar Respublika Xəstəxanasında mövcud şərait Mərkəzi Qan Bankının fəaliyyətinə geniş imkanlar açıb. Qan Bankında qan komponentlərinin uzun müddət saxlanılması üçün dondurucu və soyuducu avadanlıqlar mövcuddur. Bu isə qanı 42 günə, plazmanı isə 1 ilə qədər saxlamağa imkan verir. Görülən işlərin nəticəsi olaraq muxtar respublikada talassemiya və hemofiliyalı xəstələrin ömür müddəti uzadılıb və son 10 ildə ölüm göstəricisi talassemiyadan 5, hemofiliyadan isə, təxminən, 2 dəfə azalıb.

Naxçıvanda səhiyyə turizmi də diqqətdə saxlanılan məsələlərdəndir. Muxtar respublikada Duzdağ Fizioterapiya Mərkəzi, Darıdağ Arsenli Su Müalicəxanası, Diaqnostika-Müalicə Mərkəzində aparılan fizioterapevtik müalicələr, eyni zamanda səhiyyə turizminin inkişafına da stimul verir. Nəticədə, muxtar respublikada sanator-kurort müalicələrinə başlanılıb və ilk olaraq Bakı və Sumqayıt şəhərlərindən 198 əlilliyi olan şəxsin 10 gün müddətində müalicə kursu keçməsi təşkil edilib. Naxçıvan Muxtar Respublikası Diaqnostika-Müalicə Mərkəzi publik hüquqi şəxsində “Şorsu” palçığı ilə müalicəyə gələnlərin sayı get-gedə artmaqdadır.

“Şorsu” palçığı fizioterapevtik müalicə üsulu ilk dəfə Naxçıvan Muxtar Respublika Xəstəxanasında tətbiq edilib. Reabilitasiya şöbəsində tam komplektləşdirilmiş fizioterapevtik kabinələrdə müalicəvi bədən tərbiyəsi, bütün növ elektroterapiya, lokal traksiya, lazer terapiya, limfodrenaj, maqnitoterapiya, hidroterapiya, ozonoterapiya, hidrokolonoterapiya, parafinterapiya, Naftalan nefti ilə müalicələr aparılır. Şöbə dünya reabilitasiyasının məşhur brendi olan cihazlarla təchiz olunub. Fizioterapiya ilə müalicənin üstünlükləri ondan ibarətdir ki, dərman xəstəliyi və allergiya törətmir, müalicə imkanlarını genişləndirir və müalicə müddətini qısaldır.

Bu gün fizioterapiya ilə müalicənin rayon və kənd səhiyyə müəssisələrində də aparılmasına şərait yaradılıb. Ali Məclis Sədrinin tapşırığı ilə fizioterapevtik müalicələr üçün avadanlıqlar alınaraq 51 kənd həkim ambulatoriyasında qurulub. İndi hətta ucqar dağ və sərhəd kəndlərində xəstələrin elektroterapiya və ultrasəslə müalicə, ultrayüksəktezlikli cərəyanla, parafinlə, Solyusk lampası ilə müalicə aparatları vardır.

Ötən il noyabrın 24-də Naxçıvan Muxtar Respublikasının səhiyyə müəssisələrinə 15 təcili tibbi yardım avtomobilinin təqdim olunması xidmətin təşkilində keyfiyyətcə yeni mərhələ açıb. Muxtar respublika rəhbərinin göstərişi ilə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi Ekstrakorporeal Membran Oksigenasiyası kimi insan həyatı üçün mühüm olan cihazla təmin edilib. Səhiyyə müəssisələrimizdə dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla müayinə və müalicə işləri aparılır. Bu və digər səhiyyə müəssisələri Təcili yardım, Elektrokardioqrafiya, Exokardioqrafiya, EKQ-tredmil, Rentgen, Çoxprofilli diaqnostika, Hemodializ, Cərrahiyyə, Kardiocərrahiyyə şöbələri, çoxsaylı aparat və avtoanalizatorla təchiz edilmiş laboratoriyalar, qan bankı, pulmonoloji, stomatoloji, burun-qulaq-boğaz, oftalmoloji, terapevtik, ginekoloji kabinələr fəaliyyət göstərir. Şöbə və kabinələrdə qurulmuş müasir aparat və cihazların köməkliyi ilə müxtəlif üzv və sistemlərin hərtərəfli müayinəsi mümkündür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ötən il əsaslı yenidənqurmadan sonra istifadəyə verilən Naxçıvan Tibb Kollecinin açılışında demişdir: ***“Hansı cəmiyyətdə sağlam insan çoxdursa, o cəmiyyətdə inkişaf davamlı olur. Bu səbəbdən də insan sağlamlığı dövlətimizin qarşısında duran əsas vəzifələrdəndir. Dövlət bu işdə üzərinə düşən vəzifələri yerinə yetirir, müasir səhiyyə müəssisələri tikərək əhalinin istifadəsinə verir. Səhiyyə işçiləri isə yaradılan şəraitdən səmərəli istifadə etməli, sakinlərə nümunəvi xidmət göstərməlidirlər”.***

Muxtar respublikada əhali sağlamlığının və rifahının yüksəlişi, tibbi xidmətlərin keyfiyyətinin və əhatəliliyinin artırılması 1 yaşa qədər ölən uşaqların sayı üzrə göstəricini kəskin şəkildə aşağı salıb. Səhiyyənin inkişafı, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatı və digər bu kimi mühüm tədbirlər əsas demoqrafik göstərici olan doğulanda gözlənilən ömür uzunluğunun artımına ciddi təkan verib. Belə ki, 1995-ci ildə muxtar respublikada orta ömür uzunluğu 69 yaş, o cümlədən kişilərdə 65,3, qadınlarda isə 72,5 yaş təşkil edirdisə, indi bu göstərici 78,6 yaş, o cümlədən kişilər üçün 76,3, qadınlar üçün isə 80,9 yaş səviyyəsindədir.

Aparılan səhiyyə islahatları çərçivəsində Sədərək Rayon Mərkəzi Xəstəxanası, Duzdağ Fizioterapiya Mərkəzi, Darıdağ Arsenli Su Müalicəxanası və Diaqnostika-Müalicə Mərkəzi publik hüquqi şəxsə çevrilib. Səhiyyə xidmətlərinin səviyyəsini müasir tələblərə çatdırmaq, keyfiyyətini daha da yaxşılaşdırmaq məqsədilə artıq bir ildir ki, Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılıb. Bu il icbari tibbi sığortanın digər rayonlarda da tətbiqi səhiyyəni yeni inkişaf mərhələsinə çıxaracaqdır.

Bu gün muxtar respublikanın səhiyyə müəssisələrində 1290 həkim, 2260-dan çox orta tibb işçisi çalışır. Səhiyyə müəssisələrinin tibbi kadrlara olan tələbatının ödənilməsi üçün ardıcıl tədbirlər görülür. Naxçıvan Dövlət Universitetində Tibb fakültəsi üçün korpusun, Naxçıvan Tibb Kollecinin müasir tələblər səviyyəsində yenidən qurulması, ixtisasların sayının artırılması səhiyyə müəssisələrinin ixtisaslı tibbi kadrlarla təminatına imkan verir. Tibb mütəxəssislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq mexanizmlər yaradılır, o cümlədən xarici ölkələrdə təlimlər təşkil edilir. Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiyasının aparılması, səhiyyə işçilərinin müasir elmi biliklərinin artırılması üçün müxtəlif profilli elmi-praktik seminar və konfransların təşkili diqqət mərkəzində saxlanılır.



Hazırda yerli həkim kadrları tərəfindən müstəqil şəkildə TUR, açıq ürək, ürək damarlarına stend qoyulması, laparoskopik, LOR, göz və digər mürəkkəb cərrahiyyə əməliyyatları aparılmasına nail olunub. Artıq mürəkkəb cərrahi əməliyyatların da Naxçıvanda həyata keçirilməsi əhalinin müayinə və müalicə üçün başqa ölkələrə üz tutmasının qarşısını alıb. Aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələri çərçivəsində açıq ürək əməliyyatları, koronaroangioqrafiya manipulyasiyası, ürək damarlarına stend qoyulması, müxtəlif göz və digər əməliyyatların aparılması uğurla davam etdirilir. Həkim briqadalarının yerlərdə fəaliyyəti tibbi xidmətin əhatə dairəsini genişləndirməyə imkan verir.

***Ölkəmizdə, eləcə də muxtar respublikamızda aparılan genişmiqyaslı islahatlar göstərir ki, səhiyyə sistemi sürətlə inkişaf edir, müasirləşir. Tikilən, qurulan nə varsa, əhalinin sağlamlığının qorunmasına, orta ömür müddətinin uzanmasına xidmət edir. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin yaradılmasının 95-ci ildönümünü yüksək nailiyyətlərlə qeyd edən tibb işçiləri bundan sonra da səhiyyənin inkişafına, əhalinin sağlamlığının qorunmasına öz töhfələrini verəcəklər.***

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Vətən sevgisi qələbənin əsasıdır

***Çətin günlər idi... Üç tərəfdən düşmən əhatəsində olan, həmin dövrdə tənha adanı xatırladan Naxçıvan mərkəzi hakimiyyətin biganəliyi, düşmənlərimizin xain hücumları nəticəsində təhlükə ilə üz-üzə qalmışdı. 1990-cı il yanvarın 18-də ermənilər ərazi cəhətdən muxtar respublikanın sərhədindən kənarda, Sədərək kəndinin 8-10 kilometrliyində yerləşən Kərki kəndini işğal etdilər, yanvarın 19-na keçən gecə isə Sədərəyə hücuma keçdilər. Həmin günlərdə Kərkini itirsək də, ümidimizi, inamımızı itirmədik. Əksinə, düşmənə qarşı nifrətimiz, onu məhv etmək, yer üzündən silmək arzumuz daha da şiddətləndi.***

Türk tayfası kərkililərin adı ilə bağlı olan Kərki kəndinin ərazisi 960 hektardır. Arpaçayın sahilində yerləşən bu kəndin adı 1728-ci il tarixli “İrəvan quberniyasının müfəssəl dəftəri”ndə “Kərkiçik” adı ilə qeydə alınıb. “Kərki” toponiminə ölkəmizdə və bir sıra türkdilli xalqların yaşadıqları ərazilərdə də rast gəlmək olur. Qarabağda Kərkicahan şəhəri, Göyçə mahalında Kərkibaşı kəndi, Türkmənistanda Kərki rayonu və şəhəri, həmin respublikanın Cərco vilayətində Kərkiçi dəmiryol stansiyası, Kərkidağ toponimi də bu tayfa adından qaynaqlanıb. Bütün bunlar onu göstərir ki, yaşayış məntəqəsi qədim türklərin məskunlaşdığı yer olub.

Kərki hadisələri, əslində, 1988-ci ildə başlanıb, 1989-cu ilin dekabr ayının sonlarında vəziyyət daha da gərginləşdi. Kəndin üç yerində post qurulsa və hər postda 15 nəfər könüllü olsa da, bununla yanaşı, muxtar respublikanın digər rayonlarından bura kömək gəlsə də, bu, yaşayış məntəqəsini düşməndən qorumağa kifayət etmirdi. Çünki dörd bir tərəfi düşmənlə əhatə olunan kəndi qoruyan könüllülərin silahı da az idi. İki il ərzində Kərki dəfələrlə atəşə tutuldu. Köhnə Kərki, O tay, Sənəm zağası, kəndin girəcəyindəki Şırran körpüsü tərəfdən atışmalar daha intensiv xarakter aldı. Ən ağır döyüşlər isə yanvarın 15-i və 16-sı oldu. Bir neçə kənd sakini ağır yaralandı. Artıq quduzlaşmış ermənilərin hücumlarının qarşısını almaq mümkün deyildi. Buna görə də könüllülər kəndi tərk etmək məcburiyyətində qaldılar.

Kərkini ələ keçirən düşmən düşünürdü ki, Sədərəyi də qısa zamanda işğal edə biləcək. Buna görə də yanvarın 18-dən 19-na keçən gecə Sədərəyi ağır artilleriya atəşinə tutmağa başladılar. Əslində, hədəf təkcə Sədərək deyildi, düşmənin məqsədi muxtar respublikanı işğal etmək idi.

Ermənistandakı keçmiş sovet ordusunun silahları ilə başdan-ayağa silahlandırılmış ermənilərin planına görə, onlar yanvarın 19-da Sədərəkdə müqaviməti qırdıqdan sonra hücumu davam etdirib muxtar respublikanın paytaxtı Naxçıvan şəhərinə çatacaq və qədim diyarı işğal etmələri münasibətilə burada bayram şənlikləri keçirəcəkdilər. Lakin şir ürəkli vətənpərvər oğullarımız ermənilərin bu çirkin niyyətlərini ürəklərində qoydular. Sədərəyə hücum xəbəri ildırım sürəti ilə muxtar respublikaya yayıldıqdan qısa vaxt sonra əli silah tutan hər bir muxtar respublika sakini yumruq kimi birləşərək yurdumuzun müdafiəsinə qalxdı. Düşmən Sədərəkdə çox güclü müqavimətə rast gəldi.

On dörd dəfə hücuma məruz qalan Sədərəyə ermənilər 300-ə yaxın top mərmisi atsalar da, bir addım belə, irəliləyə bilmədilər. Düşmən ardıcıl artilleriya atəşi ilə burada 500-ə yaxın evi, məktəb binalarını, ictimai-inzibati və sosial obyektləri dağıdaraq, əhalidə xof yaratmağa çalışdı. Buna baxmayaraq, sədərəklilər evlərini tərk etmədilər, muxtar respublika sakinləri isə onlara gecə-gündüz lazımi dəstəyi verdilər. Sonda elə bir vəziyyət yarandı ki, ermənilər artıq Naxçıvanın döyüşçülərindən necə canlarını qurtarmaq barədə düşünməyə başladılar.

Yurda bağlılıq nümunəsi göstərən sədərəklilər həmin o dəhşətli günləri indi də yaxşı xatırlayırlar. Sədərək kənd sakini İsmayıl İsmayılbəyli qeyd edir ki, yanvarın 18-dən 19-na keçən gecədən etibarən gözləmədiyimiz halda ermənilər Sədərəyi top atəşinə tutmağa başladılar. Əhali müdafiə olunmaq üçün silaha böyük ehtiyac duyurdu. Əlimizdə olan silah isə, əsasən, ov tüfəngləri idi. Sədərəklilər əllərinə balta alaraq düşmənə müqavimət göstərməyə hazırlaşırdılar. İlk köməyə Ordubad və Şərur rayonlarından 40 könüllü gəldi. Çox qısa zamanda muxtar respublikanın bütün bölgələrindən onlarla könüllü Sədərəyin müdafiəsinə qoşuldu. İnsanlarımız bir yumruq kimi birləşdilər. Qızıldaşda ermənilər 14 yerdə top qoymuşdular. Sədərək buradan güclü top atəşinə tutulurdu. Bizimkilər isə 2 ədəd TOZ-8, 2 ədəd pulemyot, 4 ədəd ov silahı ilə ermənilərin hücumunun qarşısını alırdı.

Sədərək kənd sakini Teymur Quliyev isə o günləri belə xatırlayır: – Silah-sursatımız az olsa da, geri çəkilmək, kəndi tərk etmək fikrimiz yox idi. Hər kəsin ümumi fikri bu idi ki, sona qədər döyüşəcək, ölsək də bir qarış torpağı düşmənə verməyəcəyik. Belə də etdik. Ulu öndərimiz Heydər Əliyev Naxçıvana gələndən sonra artıq tam əmin idik ki, düşmən bizə qalib gələ bilməyəcək. Çünki əhali dahi şəxsiyyətin ətrafında sıx birləşdi, Naxçıvanda ordu quruculuğuna başlanıldı. Onu da deyim ki, ümummilli liderimiz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən cəmi dörd gün sonra, 1991-ci il sentyabr ayının 7-də Dövlət Müdafiə Komitəsinin yaradılması barədə qərar qəbul etdi. Bununla da, Azərbaycanda vahid komandanlığa tabe olan ilk milli ordunun əsası qoyuldu. Dahi şəxsiyyətin həyata keçirdiyi bu tədbirlər bizə cəsarət verdi, səngərlərdə daha inamla dayandıq, düşmənə həddini bildirdik. Sədərək məğlubedilməzlik simvoluna çevrildi.

Həmin hadisələr zamanı Ermənistanla sərhəddə yerləşən yüksəkliklərdən Sədərək kəndinə tərəf baxarkən onun tüstü-duman içində olduğunu deyən Teymur Quliyev bildirir: “Fikirləşirdik ki, müharibənin qanunudur, yəqin əks tərəfdən atılan silahlar düşdüyü yeri yandırır. Ancaq kənddən döyüşçülərə köməyə gələn, çörək, su gətirən könüllülər bunu kənd qadınlarının etdiyini dedilər. Onlar həm ocaqları, həm də təndirləri ona görə qalamışdılar ki, kənd tüstü-dumana bürünsün və ermənilər mühüm obyektləri, yəni bağçanı, məktəbi, inzibati binaları hədəfə ala bilməsinlər. Bu yolla vətənpərvər qadınlar həmin obyektləri top atəşlərindən qismən də olsa, xilas edə bilmişdilər”.

Şərur rayonunun Kərimbəyli kənd sakini, Sədərək döyüşlərinin iştirakçısı Vidadi Həsənov da deyir ki, şiddətli döyüşlərin getdiyi bir vaxtda rayon ərazisindəki Əyyub mağarası, Cin təndiri, Yetimlər, Həsənqulu bağı, Qaraağac, Qurdbaba, Nadirin düzü kimi ərazilər sədərəklilərin səngərinə çevrilmişdi. Düşmən gülləsinə ilk tuş gələn sədərəkli iki qardaş – Malik və Elvin oldu. Onlar hələ məktəbə də getmirdilər.

Sədərəklilərin güc aldıqları yeganə qüvvə ulu öndərimiz Heydər Əliyev idi. Naxçıvana qayıdan görkəmli dövlət xadiminin döyüşlərin davam etdiyi illərdə dəfələrlə Sədərəyə gəlməsi, sakinlərin yanında olması, təkcə Sədərəyi deyil, bütün Naxçıvanı erməni işğalından qorudu. Naxçıvanlılar dahi şəxsiyyətin ətrafında sıx birləşdilər, düşmənə müqavimət göstərdilər.

Vidadi Həsənovun fikrincə, 1990-cı ilin yanvar döyüşlərində Sədərəyin düşmənə ciddi müqavimət göstərməsinin əsas səbəbi əhalidə vətənpərvərlik hisslərinin, Vətənə bağlılığın yüksək olması idi. Bu hisslər könüllülərə güc, qüvvət verirdi.

Bu gün 20 Yanvar faciəsinin səbəbləri haqqında müxtəlif fikirlər söylənsə də, qırğının törədilməsindən keçən 29 il ərzində sübut olunub ki, “qırmızı imperiya”nın bu terror aktını törətməkdə digər dəhşətli məqsədi Bakıya qoşun yeridərək diqqəti Naxçıvan cəbhəsindən yayındırmaq idi. Keçmiş sovet rəhbərliyi anklav şəraitində yaşayan, köməksiz qalan Naxçıvanın Ana Vətən ilə əlaqəsini kəsməklə bu qədim diyarın ermənilər tərəfindən işğal olunmasına şərait yaratmağa çalışırdı. Lakin tarix sübut etdi ki, birlik, inam, Vətən sevgisi, yurda bağlılıq olan yerdə, hətta güclü düşmənə belə, qalib gəlmək mümkündür. Ötən il Əlahiddə Ümumqoşun Ordunun uğurla həyata keçirdiyi Günnüt əməliyyatı isə bir daha göstərdi ki, bu gün Naxçıvanın təhlükəsizliyi tam təmin olunub və gücü, qüdrəti ilə öyündüyümüz ordumuz muxtar respublikamızın strateji yüksəkliklərindən düşməni tam nəzarətdə saxlayır. Günnüt zəfəri hər birimizdə bir daha əminlik yaratdı ki, ordumuz istənilən vaxt işğal altında olan Kərki kəndini də düşməndən azad etmək qüdrətindədir.

✍ **Rauf KƏNGƏRLİ**

*Ümumtəhsil məktəblərində təhsil alanların attestasiyasının aparılması ilə bağlı yeni qaydaların tətbiqi ilə əlaqədar Təhsil Nazirliyi tərəfindən ümumtəhsil məktəblərinin direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri ilə seminarlara start verilib. İlk seminar Naxçıvan şəhərində keçirilib.*

# Məktəbdaxili qiymətləndirmədə yeni qaydalarla bağlı seminar keçirilib



Seminarda Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Aparatının Ümumtəhsil məktəbləri və liseylərlə iş üzrə şöbəsinin müdiri Abdulla Əsgərov məktəbdaxili qiymətləndirmə qaydalarında dəyişikliklər barədə slaydlar vasitəsilə ətraflı məlumat verib.

Qeyd edilib ki, yeni qaydalarda nəzərdə tutulan əsas dəyişikliklərdən biri summativ qiymətləndirmələrin sayının azaldılmasıdır. Böyük Summativ Qiymətləndirmə (BSQ) təhsil səviyyələrinin sonunda, yəni IV, IX və XI siniflərdə bütün fənlər, V, VI, VII, VIII və X siniflərdə isə yalnız buraxılış imtahanları keçiriləcək fənlər üzrə aparılacaq. Təhsil səviyyələrinin sonlarında Böyük Summativ Qiymətləndirmələrin keçirilməsinin əsas məqsədi bütün fənlərdən təhsil alanların nailiyyətlərinin ölçülməsi, aralıq siniflərdəki Böyük Summativ Qiymətləndirmələrin əsas məqsədi isə buraxılış imtahanlarına mükəmməl hazırlığın təmin edilməsidir.

Qaydalarda edilən ikinci dəyişiklik ibtidai siniflərlə bağlıdır. Belə ki, ibtidai sinif şagirdlərinin yaş xüsusiyyətləri nəzərə alınaraq, I siniflərdə summativ qiymətləndirmə aparılmayacaq, II, III siniflərdə yalnız Kiçik Summativ Qiymətləndirmə (KSQ) olacaq.

Qeyd olunub ki, summativ qiymətləndirmə 100 ballıq şkala ilə aparılacaq, yalnız yekunda 2, 3, 4 və 5 qiymətlərinə çevrilərək sinif jurnallarına, “Məktəbli kitabçası”na yazılacaq. Başqa sözlə, qaydalara əsasən bütün hesablamalar ballar üzərindən aparılacaq, yalnız son anda həmin balların qiymət qarşılığı da müəyyənləşəcək.

Böyük Summativ Qiymətləndirmə üçün ibtidai siniflərdə 1 dərs saatı, yuxarı siniflər üçün isə yaş xüsusiyyəti və fənnin özünəməxsusluğu nəzərə alınaraq, 45-90 dəqiqəyə kimi vaxt nəzərdə tutulur. Yarım il ərzində fənn üzrə 3-6 Kiçik Summativ Qiymətləndirmə keçirilə bilər.

Dəyişikliklərdən biri də tədris ilində keçiriləcək summativ qiymətləndirmələrin tarixinin şagirdlərə əvvəlcədən elan edilməsidir. Bu, təhsil iştirakçısı kimi şagirdlərə verilən önəmin göstəricisi olmaqla yanaşı, onların fəaliyyətlərinin planlaşdırılması baxımından da faydalıdır.

Şöbə müdiri dəyişikliklərin əhəmiyyətini qeyd edərək bildirib ki, həmin yeniliklərin tətbiqindən sonra ümumtəhsil məktəbində I siniflərdə, təxminən, 72 qiymətləndirmə azalacaq. Əvvəlki qaydalarla müqayisədə ibtidai təhsil səviyyəsi üzrə, ümumilikdə, summativ qiymətləndirmələrin sayı 280-dən 180-ə qədər azalacaq, ümumi orta təhsil səviyyəsi üzrə V-IX siniflərdə hər il orta hesabla 25 böyük summativ qiymətləndirmə aparılmayacaqdır. Yəni əvvəlki illərdən fərqli olaraq hər sinifdə 25 imtahanın azalması nəticəsində, ümumilikdə, 125 böyük summativ qiymətləndirmə keçirilməyəcəkdir. Bu isə məktəbin fəaliyyətinin qiymətləndirilməsinin vahid şkala üzərindən aparılmasını təmin edir, şagirdlərin imtahan yükünü azaldır və onların psixoloji durumunun yaxşılaşmasına, stresdən uzaqlaşmasına müsbət təsir edir.

Sonra mövzu ətrafında müzakirələr aparılıb. Ümumtəhsil məktəblərinin direktor və təlim-tərbiyə işləri üzrə direktor müavinlərinə metodiki vəsaitlər paylanılıb.

Qeyd edək ki, analoji tədbirlər muxtar respublikanın digər rayonlarında da həyata keçiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Şagirdlər arasında şahmat birinciliyinə yekun vurulub



***Naxçıvan Şahmat Mərkəzində Naxçıvan şəhər tam orta məktəblərinin komandaları arasında şahmat birinciliyi keçirilib.***

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin birgə təşkil etdiyi birincilikdə 17 komanda, hər komandanın tərkibi 3 qız, 3 oğlan olmaqla, 102 şahmatçı iştirak edib. Tədbirin bağlanış mərasimində çıxış edənlər muxtar respublikamızda şahmata göstərilən dövlət qayğısından danışıb, uğur qazanan şahmatçıları qələbə münasibətilə təbrik ediblər.

Birinciliyin seçmə turu olimpiya sistemi üzrə keçirilib, qalib gələn 8 komanda isə dairəvi sistem üzrə mübarizə aparıb.

Keçirilən yarışın yekun nəticəsinə əsasən 17 nömrəli tam orta məktəbin “Buta” komandası qalib adını qazanıb. Digər iki pillədə isə 6 nömrəli tam orta məktəbin “Qaraxan” və 1 nömrəli tam orta məktəbin “Şahin” komandaları qərarlaşıblar.

Taxtalar üzrə isə birinci taxtada Ümid Məmmədov (3 nömrəli tam orta məktəb), ikinci taxtada Hüseyn İvazov (6 nömrəli tam orta məktəb), üçüncü taxtada Mirismayıl Seyidov (1 nömrəli tam orta məktəb), dördüncü taxtada Nərgiz Həsənli (15 nömrəli tam orta məktəb), beşinci taxtada Gülüzar Fərzəliyeva (6 nömrəli tam orta məktəb) və altıncı taxtada Rəna Rəhimli (1 nömrəli tam orta məktəb) bütün rəqiblərindən üstün olaraq birinci yerlərə layiq görülüblər.

Qalib komandalar və taxtalar üzrə birinci yerləri tutan şahmatçılar təşkilatçıların diplomları ilə mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 43